Müşviq MUSTAFAYEV
Bakı Dövlət Universiteti, Sosial və pedaqoji psixologiya kafedrasının dosenti
E-mail: musfiqmustafayev306@gmail.com

Səidə Elman qızı ABDULXALİQOVA
Qərbi Kaspi Universiteti, Psixologiya və Sosial İş kafedrasının magistrantı
E-mail: seideabdulxaliq@gmail.com

PSİXOAKTİV MADDƏ İSTİFADƏSİNİN AQRESSİV DAVRANIŞA TƏSİRİ

Xülasə

Bu məqalədə psixoaktiv maddələrin aqressiv davranışlara necə təsir etdiyi sadə şəkildə araşdırılıb. Nəticə olaraq göstərilir ki, bu maddələr beyindəki kimyəvi balansı pozur, emosiyaları idarə etməyi çətinləşdirir və insanın özünü nəzarətdə saxlamasını zəiflədir buna görə də aqressiv davranışların yaranma ehtimalı artır. Alkoqol aqressiya ilə ən çox əlaqəli maddələrdən biridir alkoqol təsiri altında insan özünü daha az idarə edir və baş verən hadisələri düzgün qiymətləndirə bilmir bu da aqressiv davranışlara səbəb olur. Stimulyator maddələr isə insanı daha gərgin və həssas edir bəzi hallarda şübhə və yanlış düşüncələr yaradır və bu da aqressiyanı artırır. Kannabis və opioidlərdə aqressiya birbaşa deyil kannabis bəzi insanlarda düşüncə qarışıqlığı və şübhə yaradaraq aqressiyaya səbəb ola bilər opioidlər isə istifadə zamanı daha çox sakitləşdirir amma istifadə dayandırıldıqda insan daha əsəbi və qeyri-sabit ola bilər bu da aqressiv davranışlara gətirib çıxara bilər. Ümumilikdə psixoaktiv maddələr aqressiyanın yaranmasında ciddi risk yaradır və bu vəziyyət təkcə bioloji deyil həm də psixoloji və sosial amillərlə bağlıdır buna görə də vaxtında qarşısını almaq düzgün diaqnoz və kompleks yanaşma çox vacibdir.

Açar sözlər: psixoaktiv maddələr, aqressiya, alkoqol, stimulyatorlar, impuls nəzarəti.

UOT: 159.972:159.947.5
DOI: https://doi.org/10.54414/CCED7109

Giriş

Psixoaktiv maddələr mərkəzi sinir sisteminin fəaliyyətinə təsir göstərərək insanın şüur, emosional vəziyyət və davranış sahələrində dəyişiklik yaradan kimyəvi maddələrdir [3, s.40–43]. Bu maddələrin istifadəsi müasir dövrdə yalnız tibbi və sosial problem kimi deyil, həm də ictimai təhlükəsizlik və psixi sağlamlıq baxımından ciddi risk faktoru kimi qiymətləndirilir [14, s.15–18; 2, s.10–14].

Aqressiya isə fərdin özünə və ya ətrafdakılara zərər verməyə yönəlmiş davranış və emosional reaksiya formasıdır [4, s.22-25]. Psixoloji tədqiqatlar göstərir ki, aqressiv davranışlar yalnız şəxsiyyət xüsusiyyətləri ilə deyil, eyni zamanda bioloji (neyrotransmitter sistemləri), psixoloji (impuls nəzarəti) və sosial amillərlə də sıx əlaqəlidir [5, s.1784–1786].

Psixoaktiv maddələrin istifadəsi zamanı beynin xüsusilə prefrontal korteks və limbik sistem strukturlarında funksional dəyişikliklər baş verir. Bu dəyişikliklər nəticəsində impuls nəzarəti zəifləyir, emosional reaksiyalar güclənir və risk qiymətləndirmə qabiliyyəti aşağı düşür. aqressiv reaksiyaların yaranma ehtimalı artır [6, s.47–50]. Nəticədə aqressiv davranışların yaranma ehtimalı artır [10, s.655–657].

Ədəbiyyat məlumatlarına əsasən, alkoqol və stimulyator tipli maddələrin istifadəsi aqressiya ilə ən güclü əlaqə göstərən psixoaktiv maddələrdir. Bu maddələr inhibisiyanı azaldaraq fərdin sosial normalara uyğun davranışını zəiflədir və aqressiv reaksiyaların daha asan ortaya çıxmasına səbəb olur [9, s.342–344].

Psixoaktiv maddə istifadəsinin aqressiyaya təsiri təkcə bioloji mexanizmlərlə izah olunmur. Şəxsin sosial mühiti, ailə münasibətləri, stress səviyyəsi və psixoloji travmaları da

bu prosesdə mühüm rol oynayır. Aqressiyanın formalaşması çoxfaktorlu bir prosesdir və psixoaktiv maddələr bu prosesi gücləndirən risk amili kimi çıxış edir [1, s.25–28].

Bu məqalənin məqsədi psixoaktiv maddə istifadəsinin aqressiv davranışların yaranmasına təsirini kompleks şəkildə araşdırmaq, onun neyrobioloji və psixososial mexanizmlərini təhlil etməkdir.

Müzakirə

Psixoaktiv maddələrin aqressiyaya təsiri əsasən mərkəzi sinir sistemində baş verən kompleks neyrobioloji dəyişikliklərlə izah olunur. Bu maddələr beynin neyrotransmitter sistemlərinə təsir edərək dopamin, serotonin və noradrenalin kimi əsas kimyəvi maddələrin normal fəaliyyət balansını pozur. Nəticədə emosional tənzimləmə, qərarvermə və davranış nəzarəti kimi icraedici funksiyalar zəifləyir [10, s.658–661].

Xüsusilə prefrontal korteks psixoaktiv maddələrin təsirinə ən həssas beyin bölgələrindən biridir. Bu sahə insan davranışında planlama, impuls nəzarəti və sosial davranışların tənzimlənməsinə cavabdehdir. Maddə istifadəsi zamanı prefrontal korteksin funksional aktivliyinin azalması fərdin davranış üzərində "yuxarıdan nəzarət" mexanizmini zəiflədir və nəticədə spontan, düşünülməmiş və aqressiv reaksiyaların ortaya çıxma ehtimalı artır [10, s.662–664].

Bununla paralel olaraq limbik sistem, xüsusilə amigdala emosional reaksiyaların formalaşmasında mühüm rol oynayır. Psixoaktiv maddələr prefrontal korteksin inhibəedici təsirini zəiflətdiyi üçün amigdalanın fəaliyyəti nisbi olaraq üstünlük qazanır. Bu isə emosional reaktivliyin artmasına, qıcıqlandırıcı stimullara qarşı həddindən artıq həssaslığın yaranmasına və təhlükənin olduğundan daha yüksək qiymətləndirilməsinə səbəb olur [11, s.766–769].

Neyrobioloji tədqiqatlar göstərir ki, bu iki sistem arasındakı disbalans yəni prefrontal korteksin zəifləməsi və limbik sistemin hiperaktivliyi aqressiv davranışların yaranmasında əsas mexanizmlərdən biri hesab olunur. Belə vəziyyətdə fərd sosial situasiyalarda normalda neytral hesab edilən stimulları təhdid kimi qavrayır və müdafiə xarakterli, bəzən isə aqressiv reaksiyalar göstərir.

Mükafatlandırma sistemi məsələsi də bu kontekstdə ayrıca diqqət tələb edir. Psixoaktiv maddələr dopamin sistemini süni yolla aktivləşdirir, qısamüddətli eyforiya yaranma baxımından bu səmərəli görünsə də, uzunmüddətli istifadə reseptor həssaslığını tədricən aşındırır və emosional tənzimləmə mexanizmlərini pozur. Nəticədə frustrasiya dözümlülüyü düşür; insan get-gedə daha küçük stimullara daha güclü, bəzən aqressiv reaksiya verməyə başlayır.

Ədəbiyyat məlumatlarına əsasən, alkoqol istifadəsi psixoaktiv maddələr arasında aqressiv davranışlarla ən güclü əlaqəyə malik olanlardan biridir. Alkoqolun mərkəzi sinir sisteminə təsiri əsasən inhibitor neyron sistemlərinin zəiflədilməsi ilə xarakterizə olunur. Bu maddə GABAergik sistemin funksiyasını dəyişdirərək beynin "tormozlayıcı" mexanizmlərini zəiflədir və eyni zamanda glutamaterjik aktivliyi azaldır. Nəticədə fərdin davranış üzərində özünənəzarət mexanizmi zəifləyir və impulsiv reaksiyaların yaranma ehtimalı artır [9, s.343–346].

Beynin prefrontal korteksi insanın özünü idarə etməsinə və davranışlarını kontrol etməsinə kömək edir. Normal halda insan cəmiyyətdə necə davranmalı olduğunu düşünür, qaydalara uyğun hərəkət edir. Amma alkoqol qəbul edildikdə bu beyin hissəsinin nəzarəti zəifləyir. Nəticədə insan vəziyyəti düzgün başa düşməyə bilər, hadisələri səhv şərh edə bilər və emosiyalarını daha güclü şəkildə göstərər. Bu səbəbdən də insan daha tez əsəbiləşə bilər və aqressiv davranışlar həm danışıqda (verbal), həm də hərəkətlərdə (fiziki) ortaya çıxa bilər [10, s.655–658; 9, s.343–345].

Alkoqol amigdala və ümumilikdə limbik sistemin reaktivliyini artıraraq emosional cavabların intensivliyini gücləndirir. Bu vəziyyətdə fərd neytral və ya az əhəmiyyətli stimulları belə təhdid kimi qəbul edə bilər. Beləliklə, aqressiya yalnız davranış səviyyəsində deyil, həm də qavrama və interpretasiya səviyyəsində formalaşır [11, s.766–769].

Ədəbiyyat göstərir ki, alkoqolun aqressiyaya təsiri yalnız bioloji mexanizmlərlə məhdudlaşmır. Psixososial faktorlar da bu

prosesdə mühüm rol oynayır. Xüsusilə "alkoqol gözləntisi effekti" (alcohol expectancy effect) nəzəriyyəsinə əsasən, fərdlər alkoqol qəbul etdikdə daha cəsur, daha aqressiv və daha sosial cəhətdən sərbəst olacaqlarına inanırlar. Bu gözlənti özü belə davranışların dəyişməsinə səbəb ola bilər və real farmakoloji təsirlə birlikdə aqressiyanın daha da güclənməsinə gətirib çıxarır [12, s.231–233].

Sosial öyrənmə nəzəriyyəsinə görə, insan alkoqol qəbul edərkən başqalarında gördüyü davranışları da öyrənə və təkrarlaya bilər. Əgər bir şəxs əvvəllər alkoqol içən insanlarda aqressiv davranış görüb bunu müşahidə edibsə, bu davranış onun da davranışına çevrilə bilər. Alkoqol həm beynin nəzarət mexanizmini zəiflədir, həm də əvvəl öyrənilmiş aqressiv davranışların daha asan ortaya çıxmasına səbəb olur.

Amfetaminlər, metamfetamin və kokain kimi stimulyator tipli psixoaktiv maddələr mərkəzi sinir sistemində dopaminergik aktivliyi güclü şəkildə artıran maddələr qrupuna aiddir. Bu maddələr beynin mükafatlandırma sistemini (mesolimbik dopamin yolu) süni şəkildə stimullaşdıraraq qısa müddətli eyforiya, enerji artımı və diqqət yüksəlməsi yaradır. Lakin bu təsirin davamlılığı pozulduqda neyrokimyəvi disbalans yaranır və emosional tənzimləmə ciddi şəkildə zəifləyir [13, s.327–330].

Stimulyator maddələr qəbul edildikdə beyində dopamin səviyyəsi çox yüksəlir və eyni zamanda noradrenalin sistemi də daha aktiv olur. Bu vəziyyət bədəndə "həddindən artıq oyanıqlıq" yaradır. Nəticədə ürək döyüntüləri sürətlənir, insan daha gərgin, narahat və tez qıcıqlanan olur. Bu fizioloji dəyişikliklər insanın ətrafdakı hadisələrə daha həssas və tez reaksiya verməsinə səbəb olur və bu da aqressiv davranışların ortaya çıxmasını asanlaşdırır.

Xüsusilə kokain istifadəsi zamanı dopaminin geri alınım mexanizminin bloklanması nəticəsində beyində yüksək stimulyasiya vəziyyəti yaranır. Bu vəziyyət paranoid düşüncələrin, şübhəçilik hissinin və təqib olunma ideyalarının formalaşmasına səbəb ola bilər. Paranoid qavrayış isə sosial situasiyaların təhlükəli kimi interpretasiya edilməsinə gətirib çıxarır və nəticədə müdafiə xarakterli aqressiv reaksiyalar ortaya çıxır [13, s.331–333].

Stimulyatorlar beynin prefrontal korteksindəki nəzarət funksiyalarını zəiflədir. Bu zaman insanın qərar vermə qabiliyyəti çətinləşir, özünü idarəetmə bacarığı azalır və etdiyi hərəkətlərin nəticələrini düzgün dəyərləndirə bilmir. Nəticədə fərd şüurlu düşüncə əvəzinə ani emosiyalara qapılaraq impulsiv hərəkət etməyə başlayır [13, s.320–330].

Ədəbiyyat məlumatları göstərir ki, stimulyator istifadəsi zamanı aqressiya yalnız emosional reaktivliklə deyil, həm də koqnitiv interpretasiya pozuntuları ilə əlaqəlidir. Yəni fərd real təhlükə olmayan situasiyanı təhlükəli kimi qavrayır və bu qavrayış əsasında aqressiv davranış nümayiş etdirir [11, s.770–773].

Stimulyatorların uzunmüddətli istifadəsi beyində uyğunlaşma dəyişikliklərinə səbəb olur. Dopamin reseptorlarının həssaslığı azalır və insan emosional boşluq hiss edə bilər yəni əvvəllər zövq aldığı şeylərdən artıq həzz almır. Bu vəziyyət insanın dözümlülük həddi aşağı düşürür və onu daha tez əsəbiləşdirən edir. Nəticədə aqressiv davranışlar həm daha tez-tez, həm də daha şiddətli şəkildə meydana çıxa bilər.

Kannabis adətən sedativ təsir göstərsə də, yüksək dozalarda və uzunmüddətli istifadədə bəzi fərdlərdə paranoid düşüncələr və emosional qeyri-sabitlik yarada bilər. Bu hallar nadir olsa da, aqressiv reaksiyaların formalaşmasına zəmin yarada bilər [14, s. 42–44].

Opioidlər isə daha çox sedativ təsir göstərir və aqressiyanı birbaşa artırmır. Lakin abstinensiya dövründə (maddənin kəsilməsi zamanı) güclü irritabilite, narahatlıq və aqressiv davranışlar müşahidə olunur. Bu mərhələ asılılıq prosesində klinik baxımdan ən riskli dövrlərdən biri hesab olunur [1, s.31–33].

Psixoaktiv maddə istifadəsinin aqressiyaya təsiri yalnız bioloji mexanizmlərlə məhdudlaşmır [8, s. 88–92]. Ailə mühitində zorakılıq, sosial stress, iqtisadi çətinliklər və travmatik həyat təcrübələri aqressiyanın formalaşmasında mühüm rol oynayır. Maddə istifadəsi bu faktorlarla birlikdə təsir etdikdə aqressiv davranışların yaranma ehtimalı daha da artır [7, s.122-124].

Xüsusilə impulsivlik səviyyəsi yüksək olan və emosional tənzimləmə bacarıqları zəif inkişaf etmiş şəxslərdə psixoaktiv maddələrin təsiri daha kəskin olur. Bu qrupda aqressiv davranışlar daha tez-tez və daha intensiv şəkildə müşahidə edilir [12, s.1786–1788].

Beləliklə, psixoaktiv maddə istifadəsinin aqressiv davranışlara təsiri çoxşaxəli və kompleks xarakter daşıyır və bu təsir həm neyrobioloji mexanizmlər, həm də psixososial faktorların qarşılıqlı əlaqəsi ilə formalaşır [11, s.770–773; 5, s.1786–1788].

Müasir tədqiqatlar göstərir ki, aqressiyanın effektiv şəkildə azaldılması üçün yalnız maddə istifadəsinin məhdudlaşdırılması kifayət etmir, eyni zamanda fərdin psixoloji xüsusiyyətləri və sosial mühiti də nəzərə alınmalıdır [1, s.25–28; 14, s.60–62]. Bu baxımdan, kompleks profilaktik tədbirlərin həyata keçirilməsi, erkən diaqnostika və multidissiplinar müdaxilə proqramlarının tətbiqi psixoaktiv maddə istifadəsi ilə əlaqəli aqressiv davranışların qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir [14, s.61–63].

ƏDƏBİYYAT SİYAHISI

1. American Psychiatric Association. Diagnostic and statistical manual of mental disorders (5th ed.). American Psychiatric Publishing. 2013.
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. Narkoloji xidmət və maddə asılılığı üzrə klinik protokollar. Bakı. 2020.
3. Azərbaycan Tibb Universiteti. Psixiatriya dərsliyi. ATU nəşriyyatı. 2019.
4. Bakı Dövlət Universiteti. (n.d.). Klinik psixologiya və psixiatriya üzrə metodik vəsaitlər. 2013.
5. Bushman B.J., Cooper H.M. Effects of alcohol on human aggression: An integrative research review. Psychological Bulletin, 1990;107(3):341–354.
6. Dilbaz N. Alkol ve madde kullanım bozuklukları. Klinik Psikiyatri Dergisi. 2010.
7. Evren C., Bozkurt M. Madde kullanım bozuklukları ve dürtüsellik. Psikiyatri Dergisi, 2013;16(2), 121–130.
8. Əliyev R. Psixologiya və psixi sağlamlıq əsasları. Bakı. 2018.
9. Giancola P.R. Executive functioning and alcohol-related aggression. Journal of Abnormal Psychology, 2000;109(2):228–236.
10. Goldstein R.Z., Volkow N.D. Dysfunction of the prefrontal cortex in addiction: Neuroimaging findings and clinical implications. Nature Reviews Neuroscience, 2011;12(11):652–669.
11. Koob G.F., Volkow N.D. Neurobiology of addiction: A neurocircuitry analysis. The Lancet Psychiatry, 2016;3(8):760–773.
12. Köroğlu E., Güleç C. Psikiyatri temel kitabı. Hekimler Yayın Birliği. 2015.
13. Öztürk O. Ruh sağlığı ve bozuklukları. Nobel Tıp Kitabevi. 2016.
14. World Health Organization. Management of substance abuse: Psychoactive substances and their effects. WHO Press. 2018.

Mushviq MUSTAFAYEV
Associate Professor, Department of Social and Pedagogical Psychology,
Baku State University

Saida Elman ABDULXALIQOVA
Master's student at the Department of Psychology and Social Work,
Western Caspian University

THE IMPACT OF PSYCHOACTIVE SUBSTANCE USE ON AGGRESSIVE BEHAVIOR

Summary

This article explains in a simple way how psychoactive substances affect aggressive behavior. It shows that these substances disrupt the brain's chemical balance, make it harder to regulate emotions, and weaken self-control, which increases the likelihood of aggressive reactions. Alcohol is one of the substances most strongly linked to aggression. Under its influence, a person has less self-control and may misinterpret situations, which can lead to aggressive behavior. Stimulants, on the other hand, make a person more tense and sensitive, sometimes causing suspicion and distorted thinking, which can increase aggression. In the case of cannabis and opioids, aggression is not direct. Cannabis may, in some individuals, lead to distorted thinking and suspicion, which can trigger aggression. Opioids generally have a calming effect during use, but when use is stopped, a person may become more irritable and emotionally unstable, which can lead to aggressive behavior. Overall, psychoactive substances are a significant risk factor for aggression, and this effect is shaped not only by biological but also by psychological and social factors. Therefore, prevention, early diagnosis, and a comprehensive approach are very important in reducing aggressive behavior.

Keywords: psychoactive substances, aggression, alcohol, stimulants, impulse control.

Мушвиг МУСТАФАЕВ
Доцент кафедры социальной и педагогической психологии,
Бакинский государственный университет

Сеиде Эльман АБДУЛХАЛЫКОВА
Магистрант кафедры психологии и социальной работы,
Западно-Каспийский университет

ВЛИЯНИЕ УПОТРЕБЛЕНИЯ ПСИХОАКТИВНЫХ ВЕЩЕСТВ НА АГРЕССИВНОЕ ПОВЕДЕНИЕ

Резюме

В этой статье простым языком объясняется, как психоактивные вещества влияют на агрессивное поведение. Показано, что эти вещества нарушают химический баланс в мозге, затрудняют управление эмоциями и ослабляют самоконтроль, что повышает вероятность агрессивных реакций. Алкоголь является одним из веществ, наиболее тесно связанных с агрессией. Под его воздействием человек хуже контролирует себя и может неправильно интерпретировать происходящее, что приводит к агрессивному поведению. Стимуляторы, в свою очередь, делают человека более напряжённым и чувствительным, иногда вызывают подозрительность и искажённое мышление, что усиливает агрессию. В случае каннабиса и опиоидов агрессия носит косвенный характер. Каннабис у некоторых людей может вызывать искажения мышления и подозрительность, что может привести к агрессии. Опиоиды во время употребления обычно оказывают успокаивающий эффект, но при прекращении их использования человек может становиться более раздражительным и эмоционально нестабильным, что может вызывать агрессивное поведение. В целом, психоактивные вещества являются важным фактором риска формирования агрессии, и это влияние связано не только с биологическими, но и с психологическими и социальными факторами. Поэтому профилактика, ранняя диагностика и комплексный подход имеют большое значение для снижения агрессивного поведения.

Ключевые слова: психоактивные вещества, агрессия, алкоголь, стимуляторы, контроль импульсов.

Daxil olub: 15.04.2026